Общее содержание статьи показывает, что за некоторыми исключениями не было существенных различий в социальной структуре этих регионов, а обязанности всех слоев общества были практически идентичны. Особенно в указанных регионах обязанности лиц имевшие должность бека, не очень отличались друг от друга, лишь в Губинском ханстве немного различались.

**ABOUT THE SOCIAL STRUCTURE IN THE REGIONS OF NOTHERN AZERBAIJAN AT THE BEGINNING OF 19 CENTURY (about Nakhchivan, Shamakhı, and Kuba regions)**

***Ahmadova Yegana Mehman***

***Summary***

The article narrates about the powers and responsibilities of different sectors of Nakhchivan, Shamakhı, and Kuba khanates during the period of Russian occupation. General content of the article shows that, with some exceptions , there were no significant differences in the sosial structure of these regions, and rhe duties all sections of society were almost idential. Especially there were no differens between the sections who took the position “bey” in these regions. Only Kuba khanate was different.

***Rəyçi: dos. Bağırzadə Cavid***
***Azərbaycan tarixi kafedrasının 02 fevral 2023-cü il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarixi14 mart 2023-cü il***

**UOT:94.**

# 30-CU İLLƏRİN FACİƏSİ

***dosent Veyisov Arif Hacı oğlu, Bədəlova Tərlan Səttar qızı,***
***Veyisova Mələk Arif qızı***
***BDU-nun Qazax filialı***
***Ş.Cəbiyev adına Daş Salahlı kənd 02 saylı tam orta məktəb***
***Veyisov.arif@bk.ru***

**Xülasə:** *Məqalə Azərbaycanda kütləvi repressiyaların başlanması, “Novruz” bayramına damğa vurub, mədəniyyət və təhsil abidələrinin dağıdılması, “Xalq düşmənlərinin” sayının artması və digər zərərvericilər və onlara qarşı tətbiq edilən tədbir məsələlərinə həsr olunub.*

*Eyni zamanda məqalədə Azərbaycan xalqının əsas faciəsinin 1938-ci ilə qədər davam etməsindən, yüz minlərlə azərbaycan nümayəndələrinin hakimiyyətin razılığı və quldur dəstələrinin əli ilə bütün “düşünən başların” qondarma “üçlüklər tərəfindən” məhv edilməsindən bəhs edilir.*

**Açar sözlər:** repressiya, faciə, əksinqilabçı, xalq düşməni, təxribatçı, qəsdçi, panislamist, pantükist, trotskiçi

**Ключевые слова:** репрессия, трагедия, контрреволюционер, враг народа, провокатор, заговорщик, панисламист, пантюркист, троцкист

**Key words:** repression, tragedu, contrary revolution, people enemy, saboteur, terrorist, panislamist, panturkist, trotiskist

ÜİK (b) P MK-nin 1937-ci ilin fevral-mart plenumu partiya daxili və sovet demokratiyasını genişləndirmək barədə qərar qəbul etsədə elə oradaca Stalinin məruzəsi üzrə əsaslandırıldı ki, ölkədə geniş ziyankarlıq mövcuddur, sinfi düşmənlərlə kəskin mübarizə aparılmalıdır. Stalin plenumda vurğulamışdı: “Sosializm quruculuğu sahəsində repressiyalar hücumun zəruri ünsürüdür”. [1;184]

Həmin plenumda Stalinin belə bir göstərişi: “xalqın qəddar düşmənlərini…ifşa etməkdə xalq daxili işlər komissarlığı gecikib, ən azı 4 il gecikib” kimi səhv konsepsiyası yeni cinayətlərin törəməsinə səbəb oldu.

Fevral –mart plenumunun qərarları Azərbaycan partiya təşkilatı tərəfindən bəyənilərək rəhbərlik üçün qəbul edildi. Dövlət siyasi idarəsi və xalq daxili işlər komissarlığı “xalq düşmən”lərini məhv etməyin əsas silahı oldular.

1937-ci ildə hər gün ağlasığmaz hadisələr baş veir, dəhşətli xəbərlər yayılırdı. Adamların qəlbindən daş kimi ağır niskil asılmışdı. Onlar bir-birilə görüşüb danışmaqdan, hətta salamlaşmaqdan belə çəkinir, gözə görünməməyə, tək qalmağa çalışırdılar. Elə gün olmazdı ki, kiminsə qohumu, kiminsə dostu, kiminsə tanışı “xalq düşməni” çıxmasın. Qəzetlər hər gün müəssisə və idarələrdə, elm və tədris ocaqlarında, şəhərlərdə gizli “əksinqilabçı”, “qəsdçi”, “ziyançı”, “trotskiçi”, “pantükist”, “panislamist” təşkilatların aşkar edilməsindən, “xalq düşmən”lərinin əl-qol açmasından yazırdılar.

Belə bir şəraitdə, 1937-ci ilin iyun ayında Azərbaycan K (b) P-nın XIII qurultayı çağrıldı. Onun “məramı” da belə idi: daha çox “xalq düşməni” aşkara çıxartmaq. Hesabat məruzəsi ilə çıxış edən Azərbaycan K (b) P MK-nın birinci katibi Mir Cəfər Bağırov son sözündə dedi: “Belə bir şəraitdə kimisə əfv etmək partiyamızın Mərkəzi Komitəsini, Stalin yoldaşı aldatmaq deməkdir. Heç kimi əfv etmək olmaz. Son günlərin faktları bir daha göstərir ki, biz hələ düşmənlərin hamısını aşkara çıxarıb ifşa etməmişik. Mən bir daha təkrar edirəm ki, buna görə də bizi döyürlər, həm də haqlı olaraq döyürlər”.

Qurultay günlərində SSRİ prokuroru A.Y.Vişinski “Заря Востока” qəzetində yazırdı: “Biz xalq düşmənlərini, təxribatçıları, ziyançıları gündəlik ifşa etmək barədə Stalinin göstərişlərini yerinə yetirməliyik”.

İ.Stalinin sədaqətli silahdaşları olan L.P.Beriya, M.C.Bağırov, Y.D.Sumbatov-Topuridze (Azərbaycan SSR daxili içlər komissarı) vs R.A.Markaryan (Azərbaycan SSR daxili işlər komissarının müavini) təkcə söz deməklə kifayətlənmir, “ulu rəhbərin” göstərişlərini yerinə yetirmək üçün dəridən-qabıqdan çıxır, daha çox “xalq düşməni” tapmağa cəhd edir, adamları həbsxanalara salır, sürgünə göndərir, ölümə məhkum edir, planlarını artıqlaması ilə yerinə yetirirdilər.

1929-1930-cu illərin qışında kənd təsərrüfatının başdan-başa kollektivləşməsinə və qolçomaqların bir sinif kimi ləğv edilməsinə başlandı. Kolxozların təşkili zamanı qolçomaqların sayı sürətlə “çoxalır”, onlar seçki hüququndan məhrum edilirdi. Kütləvi cəza tədbirləri bir sıra rayonlarda kolxoz və hökumət əleyhinə çıxışlara gətirib çıxarırdı. 1930-cu il aprelin 3-də Stalin “Pravda” qəzetində [2] ” Kolxozçu yoldaşlara cavab” adlı məqaləsində yazırdı: “Qolçomaq Sovet hakimiyyətinin düşmənidir. Onunla bizim aramızda sülh yoxdur və ola da bilməz. Qolçomaqlar barəsində bizim siyasətimiz onları bir sinif kimi ləğv etmək siyasətidir”. O, qolçomaqları kənddən qovmağa, cismən məhv etməyə çağırırdı.. Bu göstəriş nəticəsində də Azərbaycanda on minlərlə kəndli “qolçomaq” adı ilə həbs edildi, güllələndi. 1929-1930-cu illərdə Azərbaycan Fövqəladə Komissiyasının sədri işləyən M.C.Bağırovun qəddarlığı özünü daha çox biruzə verirdi. Görkəmli inqilabçı Əsəd Qarayev 1929-cu ildə Azərbaycan K (b) P-nin IX qurultayındakı çıxışında demişdi ki, biz kənddə iki qoşqu heyvanı olanı qolçomaq adlandırıb, heyvanını əlindən alırıq, özünü isə məsuliyyətə çəkirik. Bəs qoşqu heyvanı olmayan kəndli torpağı necə becərsin? Belə vəziyyətdə kəndi, təsərrüfatı inkişaf etdirmək olarmı?

1929-cu ilin yanvarında Buxarin, A.İ.Rıkov və N.İ.Tomski ÜİK (b) P Mərkəzi Komitəsinə göndərdikləri məktubda kəndliyə qarşı yeridilən hərbi-feodal istismar siyasətini kəskin tənqid edirdilər, onlar Sovet hakimiyyətinin 12 illiyində çörəyin kartoçka sisteminə keçməsini, bir sıra rayonların yarıac vəziyyətini, xammalın, sənaye mallarının ciddi çatışmazlığını siyasətdəki qüsurlarda görürdülər. M.C.Bağırov hələ 1934-cü ilin yanvarında keçirilən Azərbaycan K (b) P-nin XII qurultayında demişdi: ”Məgər Buxarin qolçomağın

ulamasını kəndin fəryadı kimi qəbul etməmişdimi”?. Onun bu qurultaydakı çıxışına dərindən nəzər saldıqda belə təsəvvür oyanır ki, Azərbaycan qiyamçılarla, trotskiçilərlə, millətçilərlə doludur. O deyirdi: ”Biz düşmənləri hələ əzməmişik. Bu yaxınlarda Azərbaycan Sənaye Akademiyasında trotskiçi çıxışın üstü açılmışdı. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda sinfi düşmənlərin çıxışları vaxtında dəf edilmişdir, xalq komissarlıqlarında, məktəblərdə, institutlarda düşmən elementlər fəaliyyət göstərir, ziyalıların ayrı-ayrı təbəqələri arasında millətçilik əhval-ruhiyyəsi hökm sürür”.

1933-cü ildə rayon partiya komitələrindən 68 raykom katibi, 88 təşkilat şöbə müdiri, 54 rayon icariyyə komitəsi sədri, 77 təşviqat-kütləvi şöbə müdiri, 37 qəzet redaktoru və b. siyasi ittihamla işdən götürülmüşdü. Təkcə iki institutda- Azərbaycan Pedaqoji institutunda və İctimai İqtisad İnstitutunda bir-birini əvəz etmiş 8 direktor “siyasi sayıqlığını itirdiyinə görə” ağır cəzalandırılmışdı. 1934-cü ildə Ağdaş rayonunda olan 540 kommunisdən 266-sı partiyadan çıxarılmış, o cümlədən bütün vəzifəli şəxslər həbs edilmişdi. 340 kolxozçu isə “qolçomaq-antisovet ünsürlər” damğası ilə güllələnmişdir.

1937-ci ildə “xalq düşmənlərinin, ziyançıların sayının böyük sürətlə artması” və onlara qarşı nahaq cəza tədbirləri görülməsi ilə yanaşı, maddi-mədəniyyət abidələrinə də hücum “yaddan çıxma”dı. Bibiheybətdə gözəl bir məscid, Şəkidə, Maştağada neçə yüz illik tarixi olan əzəmətli minarələr dağıdıldı, indiki “Səadət sarayı” qrşısında yerləşən yaraşıqlı Aleksandr kilsəsi uçuruldu. Tariximizdən, mədəniyyətimizdən, ədəbiyyatımızdan xəbər verən saysız-hesabsız qiymətli kitablar məhv edildi. Kimin evində ərəb əlifbası ilə yazılmış kitab tapılardısa onu molla, panislamist-pantürkist adlandırır, həbs edirdilər.

Novruz bayramı keçirmək xalqa qadağan edilmişdi. Halbuki, Azərbaycanda Sovet hakimiyyətinin birinci ilində Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun göstərişinə əsasən, əmək komissarlığının, respublika həmkarlar şurasının “Kommunist” qəzetinin 28 mart 1921-ci il tarixli [3] nömrəsində cap edilən 17 nömrəli qərarına əsasən, martın 21-də və 22-də bütün müsalman fəhlə və qulluqçuları bayram münasibəti ilə işdən azad edilmişdilər. Lakin sonra “Novruz bayramı” da “əksinqilab” damğası ilə damğalandı. 1930-cu illərdə qəzetlər yazırdılar ki, Novruz bayramı əksinqilabi mahiyyət daşıyır və ona qarşı mübarizə aparılmalıdır.

1956-cı ildə M.C.Bağırov üzərində aparılan məhkəmə prosesi və çıxarılan ittihamnamə, habelə aparılan tədqiqatlar tamamilə sübut edir ki, respublika inzibati orqanları rəhbərləri, həmçinin Bağırov özü saxta ittihamnamələrin təşkilatçısı və icraçıları olmuşlar. Onların iştirakı ilə təkcə 1937-ci illərdə deyil, sonrakı illərdə də heç bir günahı olmayan adamlar terrora, repressiyalara məruz qalmışlar.

Azərbaycan K (b) P MK-nin sabiq katibi Ə.Qarayevin işi buna əyani sübutdur.Onu Azərbaycan Xalq Cumhuriyyətinin parlamentində, Xanbudaqovun “millətçi qurupunda”, “terror əməliyyatları” həyata keçirməkdə iştirak etməkdə və s. məsələlərdə günahlandırırdılar. Halbu ki, Qarayev Azərbaycan parlamentində bolşevik partiyasının tapşırığı əsasında iştirak etmişdi və heç bir xəyanətə yol verməmişdi. M.Ə.Rəsulzadənin hələ 1920-ci ildə Ə.Qarayevə dediyi aşağıdakı ibrətamiz fikir tam təsdiq olundu. O demişdi: “Səni bolşevik qardaşların divara söykəyib güllələyəndə məni yada salarsan.” Lakin artıq gec idi.

1937-ci ilin mayında XII Bakı partiya konfransında M.C.Bağırov görkəmli partiya və dövlət xadimlərinə qarşı açıq fitnəkarlığa başladı. O, S.M.Əfəndiyevi, H.Sultanovu, M.İsrafilbəyovu (Qədirli), M.Pleşakovu, İ.Dovlatovu, H.Ağaverdiyevi və başqalarını “partiyaçıya yaraşmayan hərəkətlərinə burjua-millətçiliyinə ” görə təqsirləndirdi. Üstəlik də həmin günlərdə onun göstərişi ilə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsində S.M.Əfəndiyevin “burjua millətçiləri ilə əlaqədar olmasını” sübut etmək məqsədilə partiya iclası keçirildi. İclas dörd gün çəkdi, lakin M.C.Bağırov məqsədinə nail ola bilmədi.

Azərbaycan xalqının görkəmli oğullarını cismani məhv etmək üçün hər vasitədən istifadə edilir, böhtanlar atılırdı. 1937-ci ilin iyun ayında çağrılmış Azərbaycan K (b) P-nın

XIII qurultayının tribunasından həmin məqsədlə istifadə edildi. M.C.Bağırov qurultayda çıxış edərək bildirdi ki, M.Əfəndiyev, H.Sultanov, M.Qədirli və başqaları hər cür millətçiləri, müsavatçıları, pantürkistləri və başqa əksinqilabi ünsürləri öz qanadları altına alaraq partiyaya və sovet hakimiyyətinə, Azərbaycan xalqına qarşı ziyançılıq işi aparırlar. Azərbaycan K (b) P-nın XIII qurultayında M.C.Bağırov Azərbaycan MİK-nin sədri S.M.Əfəndiyevin sözünü kəsərək yenidən ona qarşı ittihamlar irəli sürdü. O, demişdi: "Əfəndiyev istəyir ki, biz ona açıq surətdə silahla çıxış etməyə imkan verək. Sən gəbərəcəksən, fəqət biz imkan verməriк. Biz vaxtında sənin axırına çıxıb divan tutacağıq... Siz bizim AK (b) P rəhbərliyi əleyhinə yazdığınız ərizəni öz qohumlarınız vasitəsilə Moskvaya göndəribsiniz". [4,12] Sonra o, H.Sultanova qarşı hücuma keçərək demişdi: "Yoldaşlar, Həmid Sultanov heç də Əfəndiyevdən geri qalmır. Yeri gəlmişkən deyək ki, o da Moskvaya ərizə yazmışdır. Siz əksinqilabçısınız, amma boynunuza almaq istəmirsiniz. Bu müqəddəs, yüksək tribunadan partiya qurultayını aldatmağa çalışırsınız". O, qurultayda elm və mədəniyyət xadimlərini də yaddan çıxarmadı: "Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdi. Hazırda ifşa etdilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşviq, Böyükağa Talıblı, Tağı Şahbazi və başqa əclaflar"!

Xalqın qəddar düşməni Ruhulla Axundov nüfuzundan istifadə edərək yazıçılar birliyini bərbad vəziyyətə salmışdır.

Adamları təqib etmək, dövlət siyasəti dərəcəsinə qaldırılmışdı, hər yanda "fiziki təziq metodu" tətbiq edilirdi. Azərbaycan K (b) P-nın qurultayından sonra isə respublikamızda görkəmli partiya, dövlət, elm və mədəniyyət xadimlərinin həbsləri başlandı. S.M.Əfəndiyev həbs ərəfəsində Moskvaya, Stalin və Kalininə məktub göndərdi. O, Stalini hələ 1907-ci ildən Bakıda olarkən tanıyırdı. Sonralar Moskvada PK (b) P MK yanında Şərq Xalqları Kommunist Təşkilatları Mərkəzi Bürosu Sədrinin Müavini və digər məsul vəzifələrdə onunla birgə işləmişdi.

1931-1937-ci illərdə isə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin, eyni zamanda ZSFSR MİK sədrlərindən biri, habelə SSRİ MİK sədrinin müavini olarkən Kalininlə sıx əlaqədə olmuşdur. O, da başqaları kimi Stalinin ədalətinə inanırdı. S.M.Əfəndiyevin həyat yoldaşı Zivər xanım Moskvaya gedib, məktubları göndərilən ünvanlara çatdırdı. Əhvalatı S.M.Əfəndiyevi hələ 1919-cu ildə Moskvada işlədiyi vaxtdan yaxşı tanıyan N.Krupskayaya danışdı. N.Krupskaya bu məqsədlə Stalinin yanına getsə də nəticəsi olmadı.

Ərizələr cavabsız qaldı. 1937-ci il iyunun 24-də S.M.Əfəndiyev saxta ittihamnamə ilə həbs edildi və sonra güllələndi. M.C.Bağırov isə öz qanlı əməllərini davam etdirirdi. O, hətta bu əməllərindən həzz alırdı.

Daxili işlərin, təhlükəsizlik orqanlarının, "üçlüklərin" işçiləri uydurma ittihamnamələri günahsız adamların boynuna qoymaq üçün dəhşətli işgəncələr verir, 5-10 dəqiqəlik məhkəmə prosesi isə onların güllələnməsi və digər ağır cəzaya məhkum edilməsi barədə qərar çıxarırdı.

1938-ci il martın 1-də M.Ə.Rəsulzadənin 19 yaşlı oğlu Rəsulu "müsavatçının oğlu" olduğuna görə güllələdilər. [5;219] M.Ə.Rəsulzadənin ömür yoldaşı Ümbül Banu xanımın sürgün olunması ittihamnaməsinə Xalq Daxili İşlər Komissarlığının işçiləri Bağdasaryan və Markaryan qol çəkmişdilər.

[6; 271].

Onun qızı Lətifə də üç uşağı və həyat yoldaşı ilə birlikdə sürgün edilmiş və soyuqdan dünyasını dəyişmişdir. Bacısına da belə bir faciə qismət oldu. M.Ə.Rəsulzadə Azərbaycanı tərk edərək iki aylıq oğlu Azərlə 53 il Qazaxıstanda dəhşətli sürgün həyatı keçirmişdi. [7; 271]

Belə terror hadisələri qonşu respublikaların həyatında da baş verirdi. 1937-ci ilin ortalarında Gürcüstan və Ermənistan kommunist təşkilatlarının X qurultayı keçirildi. L.Beryanın başçılığı ilə keçirilən bu qurultaylarda Zaqafqaziyanın məşhur inqilabçıları, partiya və dövlət, elm və mədəniyyət xadimləri, hərbiçiləri "əksinqilabi, süi-qəsdçi

fəaliyyətdə” təqsirləndirilir, həbs edilirdi. O, iyulun 5-də “Pravda” qəzetində [8] “Gürcüstan bolşeviklərinin X qurultayının nəticələri” adlı məqaləsində yazırdı: ”B.Mdivaninin, N.Topoşlidzenin, M.Okucavanin, S.Kaftaradzenin, N.Niknadzenin və başqalarının daxil olduğu trotskiçi, ziyançı-qəsdçi mərkəzin üstü açılmışdır”.

1937-ci ilin payızında Ermənistanda güclənən represiyaların dalğasının fonunda azərbaycanlılar daha ağır zərbə almış oldular. Xalq düşmənlərini, trotskiçi-buxarinçi casusları ifşa etmək məqsədilə A.Mikoyan, N.Yejov və L.Beriya Ermənistana gəlmişdilər. Mikoyanın başçılığı ilə keçirilən ”təmizləmə” prosesində Moskvaya belə məlumat vermişdilər ki, Ermənistanda Araz və yuxarı Arpaçay boylarında yaşayan azərbaycanlılar guya elliklə Türkiyəyə keçmək fikrindədirlər. Ona görə də həmin ilin payızında və 1938-ci ilin yazında Vedibasar, Zəngibasar, Qəmərli, Eçmiədzin, Hoktemberyan və Ağbaba rayonlarının Türkiyə ilə həmsərhəd kəndlərində yaşayan 10 minlərlə azərbaycanlılar kütləvi surətdə repressiyaya məruz qaldılar. Minlərlə ailə sürgün olundu.

Ümumiyyətlə, Ermənistanda 30-cu illərdə 50 mindən artıq azərbaycanlılar repressiyaya məruz qalmışdılar. Bu aksiya icra edilən zaman heç bir müqavimətə rast gəlməyən Ermənistan rəhbərləri 40-cı illərin sonu 50-ci illərin əvvəllərində daha bir aksiyanın-azərbaycanlıların deportasiyası aksiyasının həyata keçirilməsinə nail oldular. [9;105]

Erməni qisasçıları yaranan şəraitdən istifadə edib öz tarixi torpaqlarında yaşayan və heç bir günahı olmayan azərbaycanlılara qarşı yenidən soyqırım tətbiq etdilər. Görkəmli tarixçi Tatsitin – “ermənilər əzəldən riyakar xalqdır”, “xaindirlər”, qraf de-Şolenin – “ermənilər çox çirkin hiyləbazdırlar, biabırçı rəzildirlər, yaramaz alçaqdırlar” [10; 72] kimi fikirləri bu illərdə azərbaycanlılara qarşı törətdikləri cinayətlərlə bir daha təsdiq olundu.

Cəmi üç gün sonra isə “Pravda” qəzetində Rıklinin imzası ilə “Düşmənin hiylələri” adlı məqaləsində “trotskiçi və müsavatçı Ruhulla Axundov mədəniyyət sahəsində nəzarətsiz olaraq istədiyini etmişdir. O, Elmlər Akademiyasının Azərbaycan filialıhın başçısı olmuş yazıçılar ittifaqında ağalıq etmişdir”. Məqalədə gənc şairlərdən Səməd Vurğunun və Süleyman Rüstəmin də ünvanına böhtanlar yağdırılır. M.C.Bağırov 1952-ci ildə Azərbaycan K(b) P-nın XIX qurtultayında S.Vurğunun sözünü kəsərək demişdi: “Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan” [11; 159]

Qurultayda o, M.İbrahimovun, S.Rüstəmovun, Ş.Bədərbəylinin və digər görkəmli mədəniyyət xadimlərinin də ünvanına təqiranə sözlər demişdi. M.C.Bağırovun şəxsi göstərişi ilə komissarlıqlarda, idarə və müəssisələrdə yığıncaqlar keçirilirdi, yuxarı təşkilatdan gələn nümayəndə isə burada “xalq düşmənlərinin əksinqilabi fəaliyyəti” haqqında məlumat verirdi. Belə yığıncaqlardan biri 1937-ci il iyunun 16-17- də Azərbaycan SSR Xalq Maarif Komissarlığında keçirilmişdir. Burada yuxarıdan gəlmiş nümayəndə Dadaş Bünyadzadənin, Puhulla Axundovun, Mustafa Quluyevin, Məmməd Cuvarlinskinin və başqa “xalq düşmənlərinin” uzun illərdən bəri Azərbaycan sovet millətləri sırasını antisovet, burjua-millətçi elementlərlə doldurması barədə məlumat vermişdir.

Həmin iclasda Sovet Azərbaycanının görkəmli elm xadimləri, ilk professorları V.Həsənbəyovun, B.Çobanzadənin, Tixomirovun, B.Xuluflunun, M.Qədirlinin, Ə.Übeydulinin və başqa alimlərin ali və orta məktəb sistemində “pozucu düşmən” fəaliyyətindən bəhs edilir, onlara “qatı əksinqilabçı” damğası yapışdırılırdı.

“Düşmənləri ifşa etmə” prosesi isə yeni-yeni aşkara çıxarılan “təxribatçı” dəstələr hesabına daha geniş miqyas alırdı. 1937-ci il oktyabrın 26-da Şamaxı şəhərində “əksinqilabçı, üsyançı, casus-terrorçu, təxribatçı-ziyançı, burjua-millətçi təşkilatının mühakiməsi” başlandı. Başda Həmid Sultanov olmaqla bir qrup günahsız adam guya M.C.Bağırova sui-qəsd hazırlamaqda və əksinqilabi fəaliyyət üstündə açıq mühakimə edilirdi. Həmin məhkəmənin materiallarında göstərilirdi: “Həmid Sultanov, Ruhulla Axundov, S.M.Əfəndiyev, D Bünyadzadə, Hüseyn Rəhimov, Heydər Vəzirov, Qəzənfər Musabyov, Ə.H.Qarayev, T.Şahbazi və başqalarından ibarət olan əksinqilabi millətçi mərkəz Azərbaycanda silahlı

üsyan hazırlamaq, partiya və hökumət rəhbərlərinə qarşı terror təşkil etmək yolu ilə Azərbaycanda sovet hakimiyyətini yıxmaq, Azərbaycan SSR-dən ayrılmaq və kapıtalist mülkiyyətini bərpa etmək vəzifəsini qarşıya qoymuşdu". Bu cür ittihamlarla Azərbaycan xalqının görkəmli övladları məhv edildi.

Bu illərdə Gürcüstan və Ermənistanda da buna oxşar proseslər təşkil edilmişdi. Ermənistan K(b) P MK-nın birinci katibi Amatuni, ikinci katibi Akopov, Ermənistan SSR Xalq Komissarları Sovetinin sədri A.Quloyan, Ermənistan SSR MİK sədri S.Martikyan, torpaq komissarı Qumedin və başqa rəhbər işçilər "xalq düşməni" kimi məhv edildilər. Amatunidən əvvəl Ermənistan K (b) P MK-nin birinci katibi işləmiş A.Xancayanı L.Beriya Tiflisdə öz iş kabinetində tapança ilə vurub öldürmüşdü. Gürcüstanda belə özbaşnalıq tez-tez baş verirdi. Ş.Eliava, S.Kasyan, A.Lejova, S.Ter-Qabrielyan, S.Teodoriya, A.Nazaretyan və başqa partiya və dövlət xadimləri də L.Beriyanın özbaşnalığının qurbanı oldular. Belə cəza "üslub"u, əslində insan hüquqlarını və humanist qanunları tapdalamaq M.C.Bağırova da xas idi. O, Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı işləmiş N.Rizayevi öz kabinetində güllələmişdi. 1920-1933-cü illərdə, yəni M.C.Bağırova qədər Azərbaycan K(b) P MK-nin birinci katibləri işləmiş (S.M.Kirov istisna olmaqla) Q.N.Kaminski, Ə.N.Qarayev, N.Polonski, Azərbaycan Xalq Komissarları Sovetinin sədrləri (N.Nərimanov istisna olmaqla) Q.Musabəyov, D.Bünyadzadə, H.Rəhmanov Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədrləri M.Hacıyev və S.M.Əfəndiyev də şəxsiyyətə pərəstiş dövrünə qurban getdilər. Ölkəmizin başqa respublikalarında çalışan, Tacikistan K(b) P MK-nın birinci katibi M.D.Hüseynov, Azərbaycanın ilk hərbi dəniz işləri xalq komissarı, nəhəng Maqnitoqorsk tikintisinin rəisi Cingiz İldırım, Azərneft Birliyinin başçıları A.Serebrovski, M.Barinov və bir çox başqaları da belə məhv edildilər. 1937-ci ildə Azərbaycanda 29 min nəfər, Özəkistanda 40 min nəfər, Gücüstanda, Ermənistanda və digər respublikalarda saysız-hesabsız insanlar xalq düşməni kimi güllələndilər və ya Sibirə göndərirdilər. L.Beriya, M.C.Bağırov, İ.Yejov, A.Vişinski isə Stalinin tapşırıqlarını yerinə yetirməkdə "fədakarlıq" göstərdiklərinə görə Lenin ordeninə layiq görüldülər.

1937-ci il dekabrın sonuna qədər təkcə Xəzər Gəmiçiliyi idarəsində 200 nəfər işçi, 10 gəmi kapitanı həbs edilmiş, İsmayıllı rayon Kürdmaşı kəndinin günahsız kolxozçuları kütləvi halda həbs edilmiş və dekabrın 31-də, yeni il axşamı onların 63 nəfəri güllələnmişdi.

M.C.Bağırovun məhkəmə prosesində aydın olmuşdur ki, saxtalaşdırma və qanunsuzluq nəticəsində 300 nəfərdən artıq partiya və sovet işçisi, o cümlədən 32 rayon partiya komitəsi katibi, 28 rayon icraiyə komitəsi sədri, 18 xalq komissarı və onların müavinləri, 66 mühəndis, Qızıl ordu və hərbi dəniz donanmasının 88 komandiri və siyasi işçi, 8 professor və bir çox vicdanlı və namuslu adamlar həbs olunaraq ya uzun müddət azadlıqdan, ya da həyatdan həmişəlik məhrum edilmişdilər.

Əslində bu, Azərbaycan millətinin qatı düşmənləri tərəfindən onun ən yaxşı hissəsinin siyasi qərəzçiliklə pərdələnmiş etnik düşmənçilik məqsədilə məhv edilməsi idi və belə bir kədərli faktla sübut olunur ki, Azərbaycandakı 51 rayondan 31-də Xalq Daxili İşlər Komissarlığı rayon bölməsinin başında ermənilər dururdular. Astara dairəsində Arakelov, Astrxanbazarda Comardyan, Zəngilanda Zərgəryan, Samuxda Petrosyan, Masallıda Avanesov, Lənkəranda Movsesyan, Tovatov; Naxçıvanda Akopyan, Ağacanyan, Akopov, Seyranov, Zakyan, Parsedov, İonesyan; Bakıda isə cəza orqanlarının mərkəzi aparatında Sumbatov-Topuridze, Markaryan, Koqan, Silman, Yemeniyanov, Borşov, Mailyan və b. başçılıq edirdilər. [12; 419]

Azərbaycan xalqının əsas faciəsi 1936-cı ildən başlandı və 1938-ci və sonrakı illərdə daha da amansız xarakter aldı. Hakimiyyətdən sui-istifadə edən dövlət quldur dəstəsi yad millətlərin əli ilə təkcə Bakıda 80 mindən artıq azərbaycanlı ziyalı nümayəndəsini – alim, yazıçı, şair, artist, müəllim, din xadimi, hərbiçi, partiya, sovet, təsərrüfat işçisini-bir sözlə

bütün düşünən zəkaları məhv etdi. Akademik Z.Bünyadov yazır ki, bütün Azərbaycanda bir neçə yüz min adam fövqalədə "üclüklər" tərəfindən güllələnməyə məhkum edildi. [13; 310]

Ölüm və cəza maşını fasiləsiz, özü də qəddarcasına işləyirdi. Stalin-Beriya terrorunun dəhşətləri yeni həyat qurucularının yaradıcı fəaliyyətinə kölgə salmış, Azərbaycan xalqının səbr və iradəsini ciddi sınağa çəkmişdir.

İnsan hüquqlarına məhəl qoyulmaması qanlı diktaturaya gətirib çıxardı, ona qarşı mübarizə yüz minlərlə, milyonlarla adamın həyatı bahasına başa gəldi.

1953-cü il martın 5-də Stalinnin ölümündən sonra hakimiyyətə gələn N.Xuruşşov Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi kimi, nəzarət etdiyi partiya aparatının, ali hərbi rəhbərlərinin yaxından köməyi ilə hakimiyyəti əlinə keçirməyə cəhd edən L.P.Beriyanı və onun əlaltılarını aradan götürdü, Stalinin tərəfdarlarını hakimiyyətdən uzaqlaşdırdı.

M.C.Bağırov Azərbaycan KP MK və Bakı Komitəsinin birgə plenumunda (1953-cü il, 12-13 iyul) ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara səmərəli fəaliyyət üçün şərait yaratmamaqda və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən azad edildi [14; 330-332]. M.C.Bağırov bir müddət Kuybışev Neft Birliyinin rəis müavini vəzifəsində işlədi. Lakin tezliklə həbsə alındı. 1956-cı il aprelin 12-dən 16-dək Bakıda SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən mühakimə edilib, xalq düşməni kimi ölüm cəzasına- güllələnməyə məhkum oldu. Məhkəmədə M.C.Bağırov ittihamnamənin qərəzli olduğunu bildirsə də, öz günahlarını etiraf edərək demişdi: "Mənim əsas səhvim odur ki, Sumbatov, Borşov, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq, Xalq Daxili İşlər Nazirliyi orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqım qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır". [15; 114-115]

Azərbaycan güc orqanlarına rəhbərlik etmiş Y.D.Sumbatov-Topuridze, X.Qriqoryan, T.Borşov, S.Yemelyanov , A.Atakişiyev, R.Markaryan da öz qanlı əməllərinə görə 1956-cı ilin aprelində güllələnməyə məhkum olundular.

Ulu öndər Heydər Əliyev repressiyanın ağır faciəsindən bəhs edərək demişdir: "1937-1938-ci illərdə Azərbaycan xalqına, əlalxüsus görkəmli adamlara, ziyalılara, siyasi xadimlərə, elm və mədəniyyət xadimlərinə qarşı böyük repressiyalar tətbiq edildi. Onlar həbs edildilər, həyatlarına son qoyuldu. Onların ailələrinə işgəncə vermişlər. Təəccüblüsü odur ki, 1920-ci ildə ilk demokratik respublikadan hakimiyyəti qəbul edən və kommunist ideologiyasına xidmət edən adamların özləri 1937-1938-ci illər repressiyasının qurbanı olmuşlar. Bir baxın azərbaycan xalqı hansı faciələri yaşamışdır". [16]

### *Ədəbiyyat*


1. Stalin İ. Əsərləri 12-ci cild, Bakı,1951, səh:184.
2. "Pravda" qəzeti, 3 aprel 1930-cu il
3. "Kommunist" qəzeti, 28 mart,1921-ci il
4. M.C,Bağırovun məhkəməsi, Bakı,1993, səh:12
5. Nəsiman Yaqublu, Məmməd Əmin Rəsulzadə. Bakı, 1992, səh:219
6. Nəsiman Yaqublu, Məmməd Əmin Rəsulzadə. Bakı, 1992, səh:271.A
7. Nəsiman Yaqublu, Məmməd Əmin Rəsulzadə. Bakı, 1992, səh:271
8. "Pravda" qəzeti, 5 iyul 1937-ci il.
9. Arzumanlı Vaqif, Nazim Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998, səh:105.
10. Величко З. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, 1990, стр.72.
11. Siyasi tarix II hissə, Bakı, 1998, səh.159.
12. "Azərbaycan tarixi" (aprel 1920-iyun 1941),VI cild, Bakı, 2008, səh.419
13. Bünyadov Z. Qırmızı terror. Bakı, 1993, səh. 310
14. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953. Баку,2003, стр.330-332.
15. Mir Cəfər Bağırovun məhkəməsi.Bakı,1993, səh.114-115.

16.Əliyev H.Ə. Azərbaycan Xalq Cumhuriyyətinin 80 illiyi münasibətilə nitq. "Azərbaycan" qəzeti, 30 may 1998-ci il

## ТРАГЕДИЯ 30-Х ГОДОВ

***Вейисов Ариф Гаджи оглы, Бадалова Тарлан Саттар кызы,***
***Вейисова Мелек Ариф кызы***

***Резюме***

Статья посвящена вопросfм начала массовых репрессий в Азербайджане, клейма празднику « Новруз», разрушению культурно-просветительских памятников, увеличения численности «врагов народа», прочих вредителей и напрасных мер применяемых против них.

Одновременно, продолжению основной трагедии Азербайджанского народа до 1938 года, уничтожению руками бандитских группировок при попустительстве властей сотен тысяч азербайджанских представителей, одним словом, уничтожению всех «думающих голов» со стороны так называемых «троек».

## 30$^{S}$ TRAGEDY OF THE YEARS

***Veyisov Arif Haji, Badalova tarlan Sattar, Veyisova Malak Arif***

***Summaru***

Article has been devoted 30$^{S}$ beginnig in Azerbaijan of popular repressions "disintegration of the monuments of adjoining material culture with increase the number of and see in vain of the punishment meausures against them, brand of the people enemies, with" contrary revolution brand of the novruz holiday problem.

Also basic tragedy has found Azerbaijan representative thousands of destroying by "thirds" of all intelects thinpring with word of contrary of Azerbaijan people by hand of the robber groups using from authority of counting as with 1938s. In the article.

***Rəyçi: İmran Məmmədov***
***İctimai və təbiət elmləri kafedrasının 18 oktyabr 2022-ci il tarixli iclasın 05 sayi protokolu***
***Daxil olma tarixi 26 oktyabr 2022-ci il***

**UOT: 94.**

## LİNDON CONSONUN HAKİMİYYƏTİNİN İLK İLLƏRİNDƏ ABŞ-IN LATIN AMERİKASI REGİONUNDA SİYASƏTİ

***dosent Bəxtiyarlı Hüseyn Əlisahib oğlu***
***Gəncə Dövlət Universiteti***

**Xülasə*:*** *Məqalədə ABŞ prezidenti L. Consonun hakimiyyətinin ilk dövründə Latın Amerikası regionunda yeritdiyi siyasət araşdırılır. Qeyd edilir ki, Kennedinin vəfatından sonra siyasi hakimiyyətə gələn L. Conson Latın Amerikasına münasibətdə fərqli siyasi xətt tutmağa başladı. Belə ki, tezliklə elan edildi ki, "Böyük dəyənək" siyasətinə dönüş baş verir. Əslində bununla region ölkələrinin sosial-iqtisadi yüksəlişi üzərində ABŞ-ın təsir gücü artırılırdı. Təbii ki, Kennedinin siyasəti ilə qismən inkişaf edən edən Latın Amerikası ölkələri yenidən despotizmin təsirini qəbul etmək istəmirdi. Buna baxmayaraq, ABŞ-ın hakim dairələri yeni siyasəti məcburi olaraq tətbiq etməyə çalışırdılar. Tezliklə, faktiki şəkildə ABŞ-ın regionda siyasi nüfuzu özünü göstərməyə başladı. Artıq, ABŞ Latın Amerikasında özünü hakim qüvvə kimi aparır və bununla ayrı-ayrı Latın Amerikası ölkələrinin daxili məsələlərinə müdaxilə edirdi. Bundan narazı qalan qüvvələr ABŞ-a güclü etiraz edir və onun siyasi gücünü tanımayacaqlarını bəyan edirdi. Bütün bunlar regionda siyasi sabitliyə öz təsirini göstərməyə bilməzdi.*